# TƏLƏBƏLƏRİNİN XATİRƏSİNDƏKİ ŞAİQ

Burada pək sevdigi və bu gün belə sevə-sevə davam etdiyi müəllimlik həyatına başlamış bir daha Tiflisə dönməmişdir. İlk müəllimliyi 7-ci şəhər məktəbində olmuşdur. Bu gündən başlayaraq 3-cü gimnaziya və mütəəddid şəhər məktəbləri, Sabunçu rüşdiyyə məktəbi və daha sonra 1-ci edadi (realni) məktəbində türkcə və ədəbiyyat müəllimligində bulunmuşdur. Şaiq bəy həyatında olduğu kibi müəllimligində də səmimiyyətdən ayrılmamışdır, təmiz və tərbiyəçi əxlaqı kəndisini tələbəyə pək sevdirmişdir. Yazı və ədəbiyyat dərslərinə layiq olduqları mövqeyi verərək iyi yazanları təşviq edər, xüsusi olaraq çalışdırır... Mübaliğədən heç qorxmadan iddia edə biləriz ki, heç bir tələbə tərəfindən heç bir müəllimin dərsi bu kadar cazibə ilə dinlənilməmişdir. Bu fitri müəllimin öylə bir ecazkar ifadəsi, öylə təsirkar tələffüzü var ki, ən laqeyd tələbə belə onu böyük bir şövq və həvəslə dinlər; Şaiq bəg dərs verərkən tələbəni o qədər cəzb edər ki, sinifdə çəkilən nəfəs belə duyuluyor. Onun nasıl bir müəllim olduğunu bilmək üçün mütləqa tələbəsi olmalıdır.



# Abdulla Şaiq Axund Mustafa oğlu TALIBZADƏ

*Azərbaycanın ədəbi-ictimai fikir tarixində maarif və mədəniyyət xadimi, şair, nasir, dramaturq, ədəbiyyatşünas, tərcüməçi kimi tanınan Abdulla Şaiq Talıbzadə 24 fevral1881-ci ildə Tiflisdə ruhani ailəsində doğulmuşdur. Balaca Abdulla ilk təhsilini ruhani idarəsinin altı sinifli məktəbində (1889-1893) və Xorasanda Türkiyədən gəlmiş maarifsevər Yusif Ziyanın məktəbində (1894-1899) almışdır. Uşaqlıqdan Şərq ədəbiyyatına, şeirə, sənətə həvəs göstərmiş, 1900-cü ilin payızında Xorasandan Tiflisə qayıtmış və bir neçə aydan sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Həmin ildəcə rəsmi dövlət komisiyası qarşısında imtahan verib, müəllimlik hüququ qazanmış, rus-tatar (türk) və realnı məktəblərdə ana dili və şəriət dərslərini aparmışdır. Az vaxt içində ictimai-ədəbi mühütlə, Nəriman Nərimanov, Əlibəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Əbdürrəhimbəy Haqverdiyev, Həsənbəy Vəzirov, Firidunbəy Köçərli, Hüseyn Cavid, Mahmudbəy Mahmudbəyov, Süleyman Sani Axundov, Seyid Hüseyn, Hüseyn Minasazov kimi dövrün məşhur ədəbi şəxsiyyətləri ilə tanış olub, taleyini ömürlük ədəbiyyata, məktəbə və maarif işinə bağlamışdır. Ədəbi-pedaqoji fəaliyyətə can atan cavan Şaiqin fikri tərbiyyəsinə, türkçülük ideyalarına yiyələnməsində qardaşı Yusif Ziyanın güclü təsiri olmuşdur.*



*On altı yaşında bədii tərcümə və füzuliyanə qəzəllərlə yaradıcılığa başlayan A.Şaiq Bakıda Avropa, türk və rus ədəbiyyatını da öyrənib, ən çox klassik ənənələrə, türk romantizminə dayanıb, «Füyuzat» ədəbi məktəbi ilə ilgilənməklə, ara-sıra «Molla Nəsrəddin» ədəbi məktəbinin təsiri ilə əsərlər də yazıbdır.*

*Yeni yüzilliyin əvvəllərindəki inqilab hərəkatı A.Şaiqin dünyagörüşündə bir dönüş yaradır. İnqilabı «Azadlıq ulduzuna», «Hürriyyət pərisinə» bənzədən şair onun sönməsindən kədərlənirsə («Niyə uçdu?», «Bir quş», «Vətən» və s.), həyati, siyasi olayları öyrəndikcə «Bir zaman məhv olur şu istibdad» inamına gəlir. Onun romantik ruhlu humanizmi, demokratizmi «Həpimiz bir günəşin zərrəsiyiz» (1910) şeirində daha aydındır. «Köç», «Dağlar sultanı» kimi əsərləri isə Azərbaycan təbiətinin romantik simfoniyası kimi səslənir.*

*Azərbaycanda məktəb və maarif işinin yüksəlişi, milli uşaq ədəbiyyatının, uşaq dramaturgiyasının yaranması bir başa A.Şaiqin adı ilə bağlıdır. O, Azərbaycan müəllimlərinin I, II qurultaylarının hazırlanmasında komissiya üzvü kimi böyük iş görmüş, «Uşaq çeşməyi» (1907), «Uşaq gözlüyü» (1909), «Gülzar» (1912) və başqa yeni tipli dərsliklər yaratmışdır.*

*A.Şaiq qüdrətli sənətçi, azadlıq carçısı, gözəllik aşiqi kimi Azərbaycan Demokratik Cümhuriyyəti dövründə həvəslə çalışıb. Məktəblərin milliləşdirilməsi məsələsi haqqında rəsmi dövlət qəzeti «Azərbaycan»da ardıcıl çıxış edən milli təhsili ilk həyata keçirən də A.Şaiq olmuşdur. Bu illərdə buraxdığı «Milli qiraət», «Ədəbiyyat dərsləri» «Türk çələngi» (1919), «Türk ədəbiyyatı» (1920) kimi dərsliklərindən Azərbaycan gəncliyinin böyük bir nəsli dərs alıb, «Müsavat» hakimiyyəti illərində yaratdığı «Türk ədəmi mərkəziyyət firqəsi», «Müsavata ithaf marşı», «Yeni ay doğarkən», «Vətənin yanıq səsi», «Arazdan Turana» kimi silsilə şeir və poemaları poeziyamıza yeni ab-hava gətirən sənət örnəklərindəndir.*

*Ömrünün altmış ilini xalqının xidmətinə yönəldən A.Şaiq bir ədəbiyyatşünas-alim, bir çox dünya ədəbiyyatı örnəklərini dilimizə çevirən sənətçi, xalq elçisi, el ağsaqqalı kimi də sayılıb, ən ali məclislərə seçilib, mükafatlandırılıb, orden və medallar alıb, Əməkdar incəsənət xadimi adına layiq görülübdür. Ən böyük mükafatı isə xalqın, millətin ona olan sevgisidir.*

*Abdulla Şaiq 24 iyul 1959-cu ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.*

əsasında keçirilirdi. Bakıda isə bu məktəblər ana dilində təlimi hər cür təhsilin ən mühüm əsası sayan mütərəqqi Azərbaycan ziyalılarının təşəbbüsü ilə, onların inadkarlığı hesabına meydana çıxmışdı. İlk belə bir məktəb Bakıda gənc pedaqoqlar – Həbib bəy Mahmudbəyov və Sultan Məcid Qənizadə tərəfindən, 1887-ci ildə onlar Tiflisdəki Aleksandr Müəllimlər İnstitutunu bitirdikdən dərhal sonra təşkil edilmişdir. Digər rus məktəblərindən fərqli olaraq, burada 1881-ci il əsasnaməsinə müvafiq surətdə birinci tədris ilində Azərbaycan dilinin keçirilməsinə yol verilir və bu dərs məcburi fənn sayılırdı.

Qətiyyətlə, söyləmək olar ki, Yusif Ziya və A.Şaiqin XX əsrin ilk illərindən etibarən fəal maarifçilər kimi çalışmalarında, istər elmi, istərsə dini sahədə dərsliklərin hazırlanmasında yuxarıda qeyd etdiyimiz milli-mədəni oyanış hərəkatının mühüm rolu olmuşdur. Digər amillərlə yanaşı, bura onların həm Tiflisdə, həm də Xorasanda rus ərəb və fars dillərində təhsil almalarını da əlavə edilsə, bu təəssübkeşlik hissinin haradan bəhrələndiyi daha aydın görünər. Çünki yeni məktəb xadimlərinin ən mühüm vəzifəsi ana dili dərsliyinin yaradılması idi. Rus-tatar məktəblərində A.O.Çernyayevskinin 1882-ci ildə tərtib etdiyi «Vətən dili» dərsliyindən istifadə edilirdi. 1887-ci ildə Yelizavetpol quberniyasının Qaryagin qəzasındakı Qarğabazar məktəbinin müəllimi A.Tahirov tərəfindən «Tatar dili rəhbərliyi», 1890-cı ildə isə Şükrulla Məhərrəmzadə Qarabaği tərəfindən «Hərflər və xətlər kitabı» tərtib olundu. Sonuncu kitab yeni üsullu məktəblərdə ana dili, hesab və başqa fənlərin tədrisində uğurla tətbiq edilirdi. Bu dərsliklərdən sonra 1890 – 1894-cü illərdə S.M.Qənizadənin «İslahi – Azərbaycan» ana dili dərsliyi, 1898-ci ildə R.Əfəndyevin «Uşaq bağçası» müntəxəbatı, 1899-cu ildə N.Nərimanovun «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» çap olundu.

Təbii ki, dövrün ictimai-siyasi və elmi-mədəni mühiti Y.Ziyanın dünyagörüşünə müəyyən təsir göstərmişdi. Və o, bu şərtlərin dəyişilmiş və maarifə münasibətdə daha mühafizəkar formada hökm sürdüyü İran mühitindən də təsirlənmişdi. O, «1894-cü ildə ailəsi ilə birlikdə Xorasana (Məşhədə) köçmüş, orada ali dini təhsil almış, məşhur Mirzə Cəfər mədrəsəsini bitirmişdir. Talıbzadə qardaşları burada da təhsil dili problemi ilə qarşılaşırlar. Milli dil və ədəbiyyatımıza olan münasibətlə bağlı yaşantılarını A.Şaiq belə qələmə almışdır: «Mirzə Yusifin məktəbində mən fars dilində yazılmış «Nicab», qardaşım (Yusif Talıbzadə – M.Ə.) isə «Tarixi – möcəm» və «Tarixi-vəssaf» kitablarını oxuyurduq. Bu kitablar mənim mənəvi ehtiyacımı təmin edə bilmirdi... O vaxtadək əsas fikrimi fars dilində olan kitabları oxumağa verdiyim üçün indi mənə Azərbaycan dili və ədəbiyyatını öyrənmək lazım idi».

Burada da Yusif Ziyanın bəxti gətirmir. Daha doğrusu, A.Şaiq ürəyinldəki fikrini Mirzə Yusifə açdıqda, müəllimi ona dili öyrənmək üçün sərf və nəhv kitabından dərs verməyə başlayır. Yusif Talıbzadə isə Mirzə Yusif Ziyanın (sonralar onun «Ziya» təxəllüsünü seçməsi müəllimi Yusif Ziyaya olan sevgisindən irəli gəlmişdir) məktəbində iki il oxuyur. Çünki ailədaxili münasibətlər nəticəsində uşaqlarının yaxın vaxtlarda Tiflisə qayıtmamasına əmin olan Axund Mustafa məktəbin müəllimi Yusif Ziyaya bir məktub yazaraq Yusif və Abdullanı ona tapşırır. Böyük oğluna isə yazır: «Madam ki, orada qalmalı oldunuz, onda qoy Abdulla həmin məktəbdə oxusun, sənsə mədrəsədə yaxşı bir alimdən şəriət dərsini oxu, heç olmasa mənim ixtisasımı al».

Beləliklə, atasının tapşırığı ilə Yusif Talıbzadə həmin məktəbdən (Yaxşı bir ədəbiyyat müəllimi, gözəl bir alim, tənqidçi və şair kimi Xorasanda şöhrət tapdığından camaat arasında bu məktəbə Yusif Ziya məktəbi deyərmişlər) çıxır və Mirzə Cəfər mədrəsəsində müctəhid Molla Əlidən dərs alır.

Xorasanda təhsil aldıqları müddətdə Yusif Ziya qardaşı ilə bərabər fars dili, fars ədəbiyyatı, fars və Azərbaycan dilinin sərf-nəhvi, məntiq, elmi-əhvali-ruh, ümumi tarix fənlərini mənimsəyir, habelə osmanlı türkcəsində bir sıra kitablar oxuyur. 1899-cu ildə Abdulla ərəb ədəbiyyatı və ərəb dilini də mükəmməl öyrənmək məqsədilə bir müddət Xorasanda qalmağa qərar verir, böyük qardaşı Yusif isə anası ilə birlikdə Tiflisə qayıdır.

Tiflisdə o, Zaqafqaziya ruhaniləri idarəsində əla səviyyədə imtahan verərək axund rütbəsi alır. Həmin ildə Tiflis camaatı A.Y.Talıbzadəni «Şah Abbas məscidinin vaizlik və mövqufat dairəsini idarə etmək üçün mütəhədqövl ikinci ruhani intixab etmişlər və təsdiq olmaqdan ötrü məkan qubernatoruna pişnəhad etmişdilər». «Tərcüman» qəzetinin 1 iyun 1907-ci il tarixli 43-cü sayında A.Y.Talıbzadə haqqında getmiş bioqrafik məlumatdan aydın olur ki, o bu vəzifədə çalışmaq əvəzinə Bakıya üz tutmağa qərar verir. «Axund Yusif isə haliyə ruhaniyyət rəqabəti məsləkinə müvafiqət etmədiyindən məzkur xidmətdən iraz edib bəzi Bakı əşraflarının səlahididilə 1900-cu sənədə Bakıda «Rus-müsəlman» məktəbinə ehkami-şəriyyə müəllimi təyin olunmuşdur. Beş sənə məzkur məktəbdə tədris etdikdən sonra Bakıda realnı edadi məktəbinə ehkami-şəriyyə və əlsəneyi-Şərqiyyə müəllimi təyin olunmuşdur».

Məktəblər arasındakı təhsil üsulu, keçirilən fənlərin fərqi sonralar iki qardaşın yaradıcılığı arasında da aşkar hiss edildi. A.Şaiq türk dilli «Nümunə məktəbi»nin yaradıcısı olduğu halda, Yusif Ziya daha çox dini mövzulara, ərəb dilinin təsirinin həmişə hiss edildiyi yazı tərzinə üstünlük vermişdir.Belə bir mühitin içərisində böyən qardaşların köksündə vaxtilə qadağan olmuş panislamist və pantürkist ideyalar yetişməyə başlamışdır.

(Məqalədə Minaxanım Əsədlinin "Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877-1923)" adlı kitabından istifadə edilmişdir.)

*Tiflis camaatı onu sevirdi. Hamı onu «Axund əmi»-deyə çağırırdı.*

*Atalarının zəngin kitabxanası, M.F.Axundov və şeyxülislam Əhməd Səlyani kimi ziyalılarla dostluğu uşaqlarda mütərəqqi dünyagörüşünün formalaşmasına öz təsirini göstərmişdir.*

*Təbii ki, zamanın ictimai-siyasi, sosial-mədəni və s. amilləri mühit çevrəsindəki hər kəsə fərqli və oxşar cəhətləri ilə təsir göstərir. Bütövlükdə isə bu amillər Milli düşüncəni formalaşdırır. XIX əsrin sonlarından bəhs edildikdə isə mənəvi amillər içərisində dinin təkzibedilməz rolu var idi. Tədqiq olunan dövrdə Tiflisin Zaqafqaziyanın mədəni mərkəzlərindən biri olmasına baxmayaraq, müsəlman Şərqinə məxsus həyat tərzi, adət və ənənələr, etiqad və görüşlər burada da davam etməkdə idi. Xüsusən Cənubi Azərbaycandan Tiflisə gələn azərbaycanlılar, orada hökm sürən mövhumatı, İran istibdadının məhsulu kimi meydana çıxan daha mürtəce adət və ənənələri özləri ilə bərabər gətirir və yayırdılar.*

*XIX əsrin sonlarına doğru müxtəlif tipli məktəblər olduğu halda əhalinin böyük qisminin öz uşaqlarını dini məktəblərdə oxutmalarının səbəbi yalnız islam dininə mənsubiyyətlərindən irəli gəlmirdi. Burada digər amillər də mühüm rol oynayırdı. Belə ki, ibtidai məktəblər haqqında 1867-ci il Əsasnaməsi Qafqazın, o cümlədən Azərbaycanın təhsil müəssisələri üçün sonuncu xüsusi nizamnamə oldu. Çarizmin köhnə xalq təhsili sisteminin eyniləşdirilməsi (unifikasiyası) siyasəti 70-ci illərdən etibarən Azərbaycanda da böyük qətiyyətlə həyata keçirilməyə başladı. Yerli dillər, o cümlədən də Azərbaycan dili icbari fənlər sırasından əsasən kənar edildi. Ümumtəhsil sistemində aparıcı rolu böyük əksəriyyəti ibtidai məktəblərdən ibarət olan rus təhsil müəssisələri oynamağa başladı. Xalq maarifi nazirliyinə tabe olan bütün ibtidai məktəblərdə təlim ancaq rus dilində aparılırdı. Azərbaycan və digər yerli dillərdə ümumtəhsil məktəbləri açmağa icazə verilmirdi. «Rusiyada məskun olan yadellilərin təhsilinə dair tədbirlər haqqında 1870-ci il 26 mart tarixli qaydaların mahiyyəti ruslaşdırmaya tabe edilmişdi. Belə olan halda ana dilində savada yiyələnmək cəhdi minlərlə uşağı mollaxana məktəblərinə cəlb edirdi. Əvvəlki dövrdə olduğu kimi, yenə də say üstünlüyü bu məktəblərin tərəfində idi.*

*Getdikcə dəyişməkdə olan sosial-iqtisadi dəyişikliklər nəticəsində və imperiyanın müsəlman əhalisi içərisində yayılmış yeni mədəni meyllərin təsiri altında artıq 70-ci illərdə ayrı-ayrı məktəblər «üsuli-cədid»ə keçməyə başladı.*

*Bu hərəkatın önündə gedən ən görkəmli Sima Krım türkü İsmail Qaspıralı idi. Doğrudur, məktəblərdə islahat aparmaq fikri ilk dəfə Kazanlı Şəhabəttin Mərcanın tələbəsi və məsləkdaşı Hüseyn Feyizxani (1828 – 1866) tərəfindən ortaya atılmışdır. O, «İslahi-Mədaris» adlı əsərində mədrəsələrin proqramına dünyəvi elmlərin də alınmasını və Avropa modelinə uyğun bir tatar məktəbi açılmasını təklif edən ilk*



*Yusif Ziya*

*islahatçıdır. Amma bu ideyanı sistemləşdirib həyata keçirən İ.Qaspıralının (1851 – 1914) təcrübəsi daha çox yayıldı və Azərbaycan maarifçiləri tərəfindən də rəğbətlə qarşılandı.*

*Burada bir məqama toxunmaq lazımdır ki, Talıbzadələr ailəsi ilə yaxın olan M.F.Axundov hələ İ.Qaspıralının üsuli-cədid hərəkatını başlatmasından öncə ərəbcəyə söykənən klassik təhsil sisteminin yanlışlığını və əlifba islahatının zəruriliyini sübut üçün çox zəhmət çəkmişdir. H.B.Zərdabi təhsilin türkcə olmasını Azərbaycan maarif sisteminin ən mühüm problemi kimi gündəmə gətirmişdir.*

*Sosial və mədəni sahələrdə də yeniliyi müdafiə edən bir hərəkat halına gəlmiş «Cədidçilik» Rusiya türklərinin birlik və gələcəyini yalnız islamda görən və hər cür yeniləşmənin xalqın ruslaşmasına rəvac verəcəyini irəli sürən mühafizəkarların sərt bir müxalifəti ilə qarşılaşmışdır.*

*A.Şaiq yazırdı ki, «Xalqda elmə, maarifə oyanan həvəs, Rusiya ali məktəblərində və Qori müəllimlər Seminariyasında təhsil alıb gələn qabaqcıl müəllimlər, yeni üsullu məktəblərin möhkəmlənməsi, dini məktəblərin nüfuzdan düşməsi üçün şəriat yaradırdı. «Rus-tatar məktəbləri» adlanan bu tədris ocaqları tədris üsulu etibarilə mollaxanalara zidd idi».*

*Bir tərəfdən Qori Seminariyasının yaradılması, digər tərəfdən ictimai idarələrin köməyi və tədris vəsaitlərinin hazırlanması nəticəsində rus-tatar məktəbləri fəaliyyət göstərmək imkanı qazandı. Tiflis məktəblərində tamamilə yeni dərsliklərdən istifadə olunsa da, dərslər rus dilində aparılırdı. Ana dili dərsləri böyük rus pedaqoqu Uşinskinin prinsipləri ilə yazılmış «Vətən dili» və «Uşaq bağçası» kimi dərsliklər*



Şaiq və oğlu Kamal

Qaspıralı, Ənvər Paşa, Hacı Zeynalabdin Tağıyev, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Nəriman Nərimanov, M.Ə.Rəsulzadə və digər türk böyükləri ilə əlaqəsi onun türkçülük məfkurəsinin formalaşmasına həlledici təsir göstərmişdir. Bu əlaqələrin təməlində təbii ki, uşaqlıq illərini keçirdiyi Tiflis həyatı durur. Atası – Zaqafqaziya şeyxülislamı Əhməd Salyaninin müavini Axund Mustafanın M.F.Axundovla dostluq münasibətləri və Əli bəy Hüseynzadənin bu ocaqla bağlılığı nəticə etibarı ilə Yusif Ziyanın da həyat və fəaliyyətində dərin iz buraxmışdır.

Sovet mətbuat senzurasının basqısından yan keçmək məcburiyyəti üzündən qardaşının – Yusif Ziyanın həyat və fəaliyyətini nə qədər kölgədə buraxmış olsa da, bütövlükdə dövrün ictimai-siyasi və mədəni mühitini təsvir etmək, Azərbaycan ziyalılarının yetişməsində Tiflis həyatının əhəmiyyətini təsdiqləmək baxımından A.Şaiqin «Xatirələrim» əsəri bizə mükəmməl bilgilər verməkdədir. O cümlədən Yusif Ziyanın hansı tarixi şərtlər daxilində ibtidai təhsil alması barədə kifayət qədər məlumat alırıq. Belə ki, həmin vaxt Zaqafqaziya və Dağıstanı idarə edən və birbaşa çar tərəfindən təyin edilən canişin burada yerləşdiyindən, bu səbəbdən də Tiflisin inzibati mövqeyi bu şəhər əhalisinin Rusiya ilə daha sıx əlaqədə saxlamasına imkan yaratdığından rus və Avropa mədəniyyətinə inteqrasiya meylləri burada özünü daha erkən və qabarıq təzahür etdirmişdir. XIX əsrin ikinci yarısında artıq Tiflisdə yüksək mədəni səviyyədə olan teatrlar yaradılmış, orta və ali məktəblər, Qori şəhərində Müəllimlər Seminariyası açılmışdı.

Zaqafqaziya xalqlarının siyasi-ictimai həyatı ilə bağlı olan Tiflisdə həmçinin azərbaycanlıların çox mədəni-maarif ocaqlarını idarə edən təşkilatlar, dini idarələr yerləşirdi. Müsəlman-türk dünyasını parçalamaq siyasəti güdən çarizm öz mənfur məqsədi yolunda sünni-şiə ixtilafları yarada biləcək bütün vasitələrdən məharətlə istifadə edirdi. Elə bu səbəbdən də Tiflisdə müfti və şeyxülislamın rəhbərliyi altında iki ruhani idarəsi təşkil edilmişdi. Müfti sünnilərə, şeyxülislam isə şiələrə rəhbərlik edirdi. Sonralar bu qərəzli siyasətin iç üzünü aydınlığı ilə dərk edən A.Şaiq ruhani idarələrinin cəmiyyətdəki mövqeyi barədə yazır ki, bunların hər birinin iki müavini, rusca və azərbaycanca yazan iki katibi və bir hesabdarı və mollalar idareyi-ruhaniyyələrə, idareyi-ruhaniyyələr isə Zaqafqaziya canişininə tabe idi.

Yusif Ziyanın gələcək həyatında Tiflis mühitindəki mütərəqqi xarakterli hadisələrin nə kimi əhəmiyyət daşıdığını şərh etməkdən məqsəd bir tərəfdən onun dünyagörüşünü formalaşdıran təhsil sisteminə, digər tərəfdən isə islami və türkçü əqidə sahibi kimi yetişməsinə təsir göstərmiş amilləri aydınlaşdırmağa çalışmaqdan ibarətdir. Yusif Ziyanın da bəxtindən uşaqlıq illəri belə bir mühitdə keçmişdir. «Bu zaman Tiflisdə, Zaqafqaziya canişinin göstərişi ilə, şeyxülislamın və müftinin nəzarəti altında altı sinifli məktəb açılmışdı. Dərsləri rus dilində aparılan bu məktəb altı sinifli rus məktəblərinin proqramını qəbul etmişdi. Əlavə olaraq bu məktəbdə azərbaycan dili, fars dili və ərəb qəvaidi də keçirilirdi. Atam Axund Molla Mustafa Tiflisdəki ruhani idarələri və açılan məktəblərlə əlaqədar olduğundan orada yaşayırdı. Mən də dünyaya gözlərimi ilk dəfə bu şəhərdə açmış, uşaqlıq illərimi də orada keçirmişəm» .

Dövrün mənəvi situasiyasına birtərəfli münasibətlə bağlı gələn məlumatların arasından sezirik ki, çox ləyaqətli, mənəvi ruhanilər, ilahiyyatçılar da Azərbaycanda kifayət qədər olub.

Mir Cəfər Mir Məmməd Kərim, Axund Mirzə Əbu Turab, Şeyx Əhməd Səlyani kimi onlarla ruhani xadimlərimiz olmuşdur ki, əlbəttə bunların sırasında Talıbzadələr ailəsinin Axund Molla Mustafa və Axund Yusif kimi simaları fəxri yer tuturdu.

Hərtərəfli təhsil görmüş bu şəxslər hər nə qədər çarizm fitnəkarlığı, intriqası ilə yaradılmış dini müəssisələrdə çalışsalar da, xalqın maariflənməsi yolunda yorulmadan təbliğat aparmış, fəal ictimai fəaliyyətlə məşğul olmuşlar.

Zaqafqaziya Şeyxülislamının müavini və Qafqaz diyarının qazisi olarkən Axund Mustafa dövrünün qabaqcıl din xadimlərindən olan və açıq fikirli şeyxülislam Əhməd Hüseynzadə və böyük maarifçi M.F.Axundovla dostluq münasibətləri yaradır.

Atasının ruhani olmasına baxmayaraq onu öz təbiəti etibarilə daha çox müəllimə bənzədən A.Şaiq yazırdı ki: «O, məhdud fikirli, mutəəssib, zaman və mühitini düşünməyən ruhanilərdən deyildi. İdareyi-ruhaniyyədən və müəllim olduğu altı sinifli məktəbdən aldığı zəhmət haqqı ilə ailəsini idarə edirdi. Məktəbdə şəriət, fars dili və ərəb qəvaidi müəllimi idi. Bütün

İdarəsində müzakirə edilib bəyənilmir, onun yenidən yazılması artıq Tiflisdə məşhurlaşmış Axund Mustafaya tapşırılır.

Bundan sonra Axund Mustafanın tədricən dini rütbələri yüksəlməyə başlayır. 1882-ci ildə ona Şiə Ruhani İdarəsinin üzvü vəzifəsini icra etmək tapşırılır. Bir az sonra isə Ruhani İdarəsinin nəzdindəki «Əli məktəbi»ndə müəllimliyə başlayır. Bu arada o, dövrünün qabaqcıl din xadimlərindən olan, açıq fikirli şeyxülislam Əhməd Hüseynzadə (Əlibəy Hüseynzadənin babası) və böyük maarifçi M.F.Axundovla şəxsi əlaqə yaradır.

1900-cü ilin 22 aprelində senator, general-adyutant knyaz Qolitsinin əmri ilə Axund Mustafa Talıbzadə Şiə Ruhani İdarəsinin üzvü vəzifəsindən və başqa xidməti işlərindən azad olunur. Ömrünün axırında şəxsi münaqişələrlə qarşılaşaraq maddi çətinliklər içərisində o, 1903-cü ildə vəfat edir, Tiflis müsəlman qəbristanlığında dəfn olunur.

Abdulla Şaiq xatirələrində anası Mehri xanım haqqında yazırdı:

Anam ata tərəfdən Sarvanda Bayramlılardan - ağalardan, ana tərəfdən isə Dəmirçi Həsənli kəndindən Əminlilərdəndir... Uşaq ikən Nərimanovlar familiyasına mənsub olan molla Fatmanın yanında üç-dörd il oxumuşdusa da bir şey öyrənməmişdi... Çox dikbaş, rəyasət sevən, öz mənliyini hər şeydən üstün tutan bir qadın idi... Anamı çox sevirdim, o mənim sərmayeyi-həyatım idi.

Şaiq davamı olaraq bunları da xatirələrində qeyd edir:

Anam nağıl edirdi ki, Mirzə Fətəli Axundov Şeyxülislam molla Əhməd Səlyaninin və atamın (Axund Mustafanın) yaxın dostu imiş. Evləri bizə yaxın olduğundan bazar günləri atamın yanına söhbətə gələrmiş. Söhbət zamanı hərdən mübahisə də edərlərmiş... Bir dəfə anamın: «Qonaqla nəyin üstündə belə deyişirsən?» – sualına atam cavab verir ki, «Hər gələndə dindən söz açır. Çox ağıllı, bilikli və xeyirli adamdır.»



Anası Mehri xanım

A.Şaiqin Mənzil Muzeyində mühafizə edilən mənbələrdən, M.Sarvanın «Ulu Borçalı» kitabından, «Azərbaycan arxivləri» jurnalında dərc edilmiş arxiv materiallarından Yusif Ziya Mustafa oğlu ilə bağlı bir sıra qaranlıq mətləblər aşkarlanır. «Türk təfəkkürü məcrasında» adlı monoqrafiyada yuxarıdakı mənbələrə istinadən professor Nizaməddin Şəmsizadə də təsdiqləyir ki, əvvəlcə Tiflisdə, sonra isə Xorasan və Bağdadda yüksək dini təhsil almış Axund Yusif XX əsrin əvvəllərində türkçülük, islamçılıq və azərbaycançılığın ideoloq-larından biri, publisist, maarifçi, şair, dramaturq, hərbçi və siyasi xadim idi.

Mövsüm Əliyev, Yaşar Qarayev, Kamal Talıbzadə və digər tədqiqatçıların araşdırmalarından öyrənirik ki, sonralar görkəmli siyasi ideoloq, ədəbi, ictimai, hərbi və ruhani xadim, Azərbaycan və Türküstanda 1917 – 1923-cü illərdə milli istiqlal hərəkatının fəal iştirakçısı, pedaqoq, mühərrir və yazıçı kimi tanınmış, 22 yanvar 1877-ci ildə Tiflisdə anadan olan Yusif Ziya ailənin ilk övladıdır (1923-cü ildə şəhid olmuşdur). Yəni görkəmli Azərbaycan şairi, dramaturqu, maarif və ictimai xadimi Abdulla Şaiq Talıbzadənin (1881 – 1959) böyük qardaşıdır. Yusif Ziya haqqında ictimai və elm-nəzəri fikirdə mövcud başlıqlarla bağlı yuxarıda müəyyən şərhlər versək də, onu da qeyd edək ki, nəinki onun fəaliyyətini, ümumiyyətlə Talıbzadələrin nəsil şəcərəsini, A.Şaiq yaradıcılığının azadlıq və milli istiqlalı tərənnüm edən, sovet dövrünün acı həqiqətlərini əks etdirən cəhətlər günümüzə qədər gizlin saxlanılmışdır.

Yusif Ziya ilk təhsilini Tiflisdə – Zaqafqaziya ruhani İdarəsi nəzdindəki «Əli təlimi» üzrə şiə məktəbində (ona Rüşdiyyə məktəbi də deyirlər) almış və burada türk, ərəb, fars, rus dillərini öyrənmişdir. Abdulla Şaiqin «Xatirələrim» əsərindən də aydın olduğu kimi, Yusif Ziya 1894-cü ildə ailəsi – anası və kiçik qardaşı ilə birlikdə Xorasana (Məşhədə) köçmüş, orada ali dini təhsil almış, məşhur Mirzə Cəfər mədrəsəsini bitirmişdir. Burada müctəhid molla Əlinin tələbəsi olmuşdur. Ali ruhani təhsilini 1890-cı illərin sonlarında Bağdadda almışdır.

Burada diqqəti Yusif Ziyanın həyat və fəaliyyəti ilə bağlı bir məqama çəkmək istərdik ki, onun qan yaddaşına hopan və kiçik qardaşı A.Şaiqə də aşıladığı türkçülük – islamçılıq ruhu mayasını ilk növbədə qədim türk elindən – Borçalı mahalından və uşaqlığını, ibtidai təhsilini aldığı Tiflisin fəal ictimai-mədəni mühitindən qaynaqlanmışdır.

Burada milli tariximizlə bağlı bir xarakterik cəhəti nəzərdən qaçırmamaq lazımdır. Belə ki, millətçilik, türkçülük ideyalarının ilkin olaraq Çarlıq Rusiyası daxilində baş qaldırması bilavasitə ruslaşdırma siyasətinin amansızlığı ilə şərtlənirdi. Yusif Ziyaya türkçülük nəzəriyyəsinin ən böyük şəxsiyyətləri və türklüyə böyük xidmətlər göstərmiş simalarla birbaşa təmasda, ünsiyyətdə olmaq şərəfi nəsib olmuşdur. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, İsmayıl bəy

# Milli mücahid Yusif Ziyanın, Azərbaycan ədəbiyyatının klassiki Abdulla Şaiqin və məşhur ədəbiyyatşünas-tənqidçi, akademik Kamalın imzasında ölməzlik qazanmış TALIBZADƏLƏR soyadının tarixindən

*Əlimizdə olan mənbələrdən və akademik Kamal Talıbzadənin bizə verdiyi bilgilərdən məlum olur ki, Talıbzadələr şəcərəsinin kifayət qədər məlum və xalqımızın elmi-mədəni tərəqqisi yolunda önəmli tarixi vardır. Abdulla Şaiqin ulu babası Mustafa kişi XVII yüzildə dörd oğlunu da götürüb Şəmşəddil sultanlığından Borçalı sultanlığının Sarvan kəndinə köçüb.*



Axund Mustafa Talıbzadə

*Hələ Səfəvilər dövründən İran və Osmanlı imperiyalarının hakimiyyət çarpışmalarına hədəf olmuş Qazax-Şəmşəddil sultanlığı sonrakı dövrlərdə həm də Gürcü çarları ilə Rusiya qoşunlarının mübarizə meydanına çevrilmişdir. Əsasən oğuz türklərindən ibarət olan bu diyarın sakinləri müxtəlif hakimiyyətlər altında yaşamaq məcburiyyətində qalmışlar.*

*Azərbaycan tarixinə dair mənbələrdən öyrənirik ki, XVIII əsrin ortalarından hər iki sultanlıq gah müstəqil, gah da bu və ya digər xanlıqdan asılı olmuşdur. Bəylərbəyi Uğurlu xan Ziyad oğlu 1736-cı ildə Muğanda Nadirin şah elan edilməsinə etiraz etdiyi üçün Qazax, Şəmşəddil və Borçalı ərazisi Qarabağ bəylərbəyindən alınıb Kartli çarı Teymuraza verilmişdir.*

*Şəki xanı Hacı Çələbinin 1752-ci ildə Şəmkir yaxınlığında Kartli çarı II İrakli üzərində qələbəsindən sonra Qazax sultanlığı bir müddət Şəki xanlığının tərkibinə qatılsa da XVIII əsrin axırlarında hər iki sultanlıq II İraklinin vassallığına keçmişdir. Həmin vaxtdan Qazax-Şəmşəddil sultanlığı adlandırılan bu ərazi 1801-ci ildə Gürcüstanın tərkibində Rusiyaya birləşdirilmiş, 1819-cu ildə isə sultanlıq ümumiyyətlə ləğv edilmişdir.*

*Gərgin və fərqli ictimai-siyasi şərtlərin bir-birini əvəzləməsi yerli əhalini zülm, iztirab və məşəqqətlərə düçar etsə də, müəyyən mənada müxtəlif elmi-mədəni mühitlərdən bəhrələnməyə də şərait yaratmışdır. Ziyalılar islam aləmi, türk dünyasılə bağları saxlamaqla yanaşı, Rusiya vasitəsilə Avropa mədəniyyətini öyrənmə imkanı da qazanmışlar. «Axund uşağı» adlandırılan Talıbzadələr nəsli də Borçalı mahalında ziyalılığı, Allah adamı olmaları, maarifçilik fəaliyyətləri ilə tanınmışlar. Şaiqin Axund Süleyman babası da dövrünün tanınmış alimlərindən və din xadimlərindən olub. K.Talıbzadə nəsil şəcərələri haqqında yazır ki, «Axund Süleyman məşhur xəttat imiş. Sədinin «Gülüstan»ını və bir neçə başqa əsəri öz əlilə köçürüb. Hazırda həmin əsərlər Respublika Əlyazmaları İnstitutunda saxlanılır.*

*Tarixi mənbələrdə xəttat Süleyman Talıb oğlundan başlayan şəcərə öz dövrünün məşhur din və maarif xadimlərindən olan Mustafa Talıbzadə imzası ilə ilk məşhur simalarından biri ilə tarixiləşir. Axund Mustafa 1842-ci ildə Borçalı mahalının Sarban kəndində dünyaya gəlmişdir. Atası xəttat Süleyman Talıb oğlu dovrünün tanınmış din alimlərindən olmuşdur. Axund Mustafa ali dini təhsilini Təbrizdə məşhur olan Hacı Səfərəli mədrəsəsində bitirmiş, 1871-ci ildə dini elmlərin tam kursunu başa vurması barədə sənəd almışdır. Təbrizdən Tiflisə qayıtdıqdan iki il sonra 1873-cü ilin 12 dekabrında Şiə Ruhani İdarəsində yüksək rütbəli din xadimlərinin qarşısında imtahan verərək axund rütbəsinə layiq görülmüşdür. 1874-cü il martın 1-də Tiflis-Kutaisi Şiə Quberniya məclisinə üzv seçilir, bu illərdə əsasən maarif məsələləri ilə məşğul olur, məktəb və dərsliklərin yaradılması işinə nəzarət edirdi. 1881-ci ildə Qori seminariyasının müəllimi Əbdülsəlam Axundzadənin şəriət dərsliyi Ruhani*